

# Əli Mahmud oğlu Süleymanov
# (1937–2019)

29 avqust 2019-cu ildə uzunsürən xəstəlikdən sonra tanınmış neftçi alim, neft-qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı, neftli-qazlı hövzələrin paleotektonik, paleocoğrafi və struktur-tektonik inkişafı sahəsində əvəzsiz elmi töhfələr vermiş Əli Mahmud oğlu Süleymanov vəfat etmişdir.

Əli Mahmud oğlu Süleymanov 1937-ci il mart ayının 13-də Şabran (kecmiş Dəvəçi) rayonunun Zeyvə kəndində anadan olmuşdur.

O, 1954-cü ildə orta məktəbi bitirmiş, 1955–1960-cı illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsində təhsil alaraq "Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı" üzrə dağ mühəndisi-geoloq ixtisasına yiyələnmiş, sonra təyinatla SSRİ Geologiya Nazirliyinin Türkmənistan SSRİ Nazirlər Soveti yanında Yer Təkinin Geologiyası və Mühafizəsi İdarəsinin "Cənub-Şərqi Qaraqum geoloji ekspedisiyasına" göndərilmişdir. Ekspedisiyada kollektor və texnik-geoloq vəzifəsində çalışan Ə.Süleymanov Qaraqum səhrasının cənub-şərq hissəsində, Amu Dərya çayı hövzəsində əvvəlcə geoloji xəritəalma işləri, sonra isə struktur-axtarış quyularının qazılması ilə məşğul olmuşdur. Onun iştirakı ilə aşkarlanmış Farab, Saka və b. strukturlarda sonralar zəngin qaz yataqları tapılmışdır.

1961-ci ilin mart ayında Ə.Süleymanov Azərbaycan Dövlət Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda "Neft geologiyası" laboratoriyasında kiçik texnik vəzifəsinə qəbul olunmuşdur. O zaman laboratoriyada akademik Ə.Ə. Əlizadənin rəhbərlik etdiyi Gəncə və Talış neftli-qazlı rayonlarının geoloji quruluşu və neft-qazlılıq perspektivliyi mövzusu üzrə işlər aparılırdı. Belə bir əhəmiyyətli işə cəlb edilməsi Ə.Süleymanova Azərbaycan neft geologiyası elminin bir sıra incəliklərini öyrənməyə imkan verir.

1965-ci ildə Ə.Süleymanov həmin institutun aspirantura şöbəsinə qəbul edilir. 1969-cu ildə akademik Ə.Ə. Əlizadənin rəhbərliyi altında "Xəzəryanı-Quba neftli-qazlı rayonunun Tabaşir dövründə paleogeologiyası və Tabaşir çöküntülərinin neft-qazlılığı" mövzusunda dissertasiya işini müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülür.

Onun məsul icraçısı olduğu "4000–7000 m dərinliklərdə neft və qaz yataqlarının (yığımlarının) kəşfiyyatının geoloji zəmini və səmərəliyi" elmi-tədqiqat işi SSRİ Neft Sənayesi Nazirliyinin I dərəcəli mükafatına layiq görülür.

Əli Süleymanov SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən 1978-ci ildə qeyri-antiklinal tipli neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı üzrə Sovet ekspert qrupuna dəvət edilərək Hindistan Respublikasının "ONGC" şirkətinə ezam olunur və Kambey körfəzi neftli-qazlı hövzəsində bir sıra qeyri-antiklinal tələlərin aşkar edilməsi, onların neft-qazlılıq perspektivliyinin elmi cəhətdən əsaslandırılması mövzusu üzərində çalışmışdır. 1980-ci ilin avqust ayında Ə.Süleymanov Hindistan Respublikasının dövlət komissiyası qarşısında elmi-tədqiqat işi əsasında alınmış nəticələri müvəffəqiyyətlə müdafiə edir.

1980-ci ilin sentyabr ayında vətənə qayıdan Ə.Süleymanov 1980–1986-cı illər ərzində Yevlax-Ağcabədi, Kür-Qabırrı çaylararası neftli-qazlı rayonlarının geoloji quruluşu və neft-qazlılıq perspektivliyini öyrənir və müxtəlif geoloji quruluşlu neft-qaz yataqlarının axtarışı və kəşfiyyatının səmərəli üsullarını işləyib hazırlayır.

1986-cı ildə Ə.Süleymanov Suriya-Sovet dövlətlərarası geoloji əməkdaşlıq müqaviləsi əsasında SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən Suriya Ərəb Respublikasına ezam olunur. O, 1986–1989-cu

illərdə Suriya Ərəb Respublikası ərazisində aparılacaq axtarış-kəşfiyyat işlərinin səmərəli istiqamətlərini müəyyən etmək məqsədilə kompleks geoloji-geofiziki araşdırmalar əsasında Mezozoy və Paleozoy çöküntülərinin litofasial, struktur-tektonik xüsusiyyətlərini, neft-qazlılıq əlamətlərini tədqiq etmişdir. Alınmış nəticələr əsasında 1990–1995-ci illərdə Suriya Ərəb Respublikası ərazisində aparılacaq axtarış-kəşfiyyat işlərinin planı hazırlanmış və icra üçün Suriya Dövlət Neft Şirkətinə təqdim edilmişdir.

Ə.Süleymanov 1989–1994-cü illərdə AzNQSDETLİ-nin geoloji şöbəsində böyük və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. O, bu müddət ərzində qeyri-antiklinal və qeyri-ənənəvi tipli tələlərdə neft-qaz yataqlarının axtarış-kəşfiyyat üsullarının optimallaşdırılması, Azərbaycanın müxtəlif neftli-qazlı rayonlarında aparılmış işlərin nəticələrinin ümumiləşdirilməsi və gələcəkdə görüləcək kompleks layihələrin tərtibi ilə məşğul olmuşdur.

1994-cü ildə Ə.Süleymanov "Geoloji-kəşfiyyat işlərinin əsaslandırılması" laboratoriyasının müdiri vəzifəsinə təyin edilir. Onun rəhbərliyi altında Azərbaycanın Mezozoy, Paleogen-Miosen çöküntülərində aparılmış axtarış-kəşfiyyat işlərinin nəticələri hərtərəfli təhlil edilərək, gələcəkdə aparılacaq işlərin effektivliyini artırmaq üçün təkliflər verilmiş, Kür-Qabırrı çaylararası rayonu, Aşağı Kür çökəkliyi və Qərbi Abşeronun Paleogen-Miosen və Pliosen çöküntülərinin neft-qazlılıq perspektivliyi qiymətləndirilmişdir.

Alimin elmi rəhbərliyi ilə yerinə yetirilmiş "Qərbi Abşeronda Paleogen-Miosen çöküntü kompleksinin öyrənilməsi məqsədilə görülmüş geoloji-kəşfiyyat işləri nəticələrinin təhlili və yeni perspektivli sahələrin müəyyənləşdirilməsi" elmi-tədqiqat mövzusu üzrə alınan nəticələr Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 1999-cu il üzrə mühüm elmi nailiyyətlər hesabatında qeyd edilib.

Azərbaycan neftli-qazlı rayonlarının geologiyasını dərindən bilən Ə.Süleymanov 1996-cı ildə Fransa Respublikasının "Total" neft şirkətinin dəvətilə Paris, 1998-ci ildə isə Hindistan Respublikasının "ONGC" şirkətinin dəvətilə Dehli və Dəhrə-Dun şəhərlərində ezamiyyətlərdə olmuş, mütəxəssislərə neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı üzrə dəyərli məsləhətlər vermişdir.

Ə.Süleymanov 90-dan artıq elmi məqalənin, o cümlədən 5 monoqrafiyanın müəllifi və həmmüəllifidir. Onun beynəlxalq konfrans və simpoziumlarda etdiyi məruzələr mütəxəssislər tərəfindən böyük maraqla qarşılanmışdır.

Müxtəlif illərdə Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin təşkil etdiyi tələbə elmi konfranslarında, gənc mütəxəssis və alimlərin regional konfranslarında münsiflər heyətinə rəhbərlik Ə.Süleymanova həvalə edilmişdir.

O, elmi-tədqiqat işləri ilə yanaşı, institutun elmi-ictimai işlərində də fəal iştirak etmiş, uzun illər ərzində institutun geoloji şöbəsi nəzdində elmi-texniki cəmiyyətə sədrlik etmişdir. 2004-cü ildə Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin vitse-prezidenti, 2006-cı ildə isə prezidenti seçilmişdir. O, cəmiyyətin işində səmərəli fəaliyyətinə görə Fəxri fərmanla təltif olunmuşdur. Ə.Süleymanov 2004-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri fərmanına layiq görülmüşdür.

Əli Mahmud oğlu Süleymanovun əziz xatirəsi bütün neftçi-geoloqların, onun həmkarlarının, tələbələri və yaxınlarının qəlbində əbədi yaşayacaqdır.